**Azərbaycan Respublikasının diplomatik xidməti qədim Azərbaycan ərazisində yaranmış bir çox dövlətlərin diplomatiya ənənələri və zəngin irsi üzərində qurulmuşdur.**

# Diplomatik xidmətimiz milli maraqlar və zəngin irs üzərində qurulmuşdur

Azərbaycan qədim tarixə, zəngin dövlətçilik irsinə və varislik ənənələrinə malikdir. Yer kürəsində insanların ən qədim məskənlərindən biri Azərbaycandır. Bu ərazilərdə ilk dövlətlərin yaranması eramızdan əvvəl IV minilliyin əvvəllərinə gedib çıxır. Şumer hökmdarlarının siyahısında ("The Sumerian King List") və digər elmi mənbələrdə eramızdan əvvəl III- II minilliklərdə Urmiya gölünün ətrafında mövcud olmuş Aratta, Lullubi, Kuti dövlətləri haqda məlumatlar vardır. Manna çarlığı, Midiya dövləti, Saka-Skif padşahlığı, Atropatena dövləti və Alban çarlığı milli dövlətçilik və diplomatiya tariximizin ən qədim səhifələrindən sayılır. Antik ədəbiyyatda Atropatena dövlətinin çevik xarici siyasəti, diplomatik məharəti haqqında zəngin faktlara rast gəlinir. Uzaqgörən hökmdar Atropat xarici siyasətdə danışıqlar taktikasından istifadə edir, dövlətin ərazisini qorumaq üçün Makedoniyalı İsgəndərlə sülh müqaviləsi bağlayır, qızını isə İsgəndərin ən yaxın silahdaşı - Makedoniya süvarilərinin başçısı general Perdikkaya (Perdiccas) ərə vermişdi.

Strabon, Böyük Plini, Klavdi Arrian, Dion Kassi, Ptolomey, Yuliy Solin, Pompey Troq Azərbaycanın antik dövrü, bu torpaqlarda mövcud olmuş Albaniya və Atropatenanın dolğun təsvirini vermiş antik müəlliflərdir. Herodot, Diodor, Plutarx, Strabon, Ammion Martselin Midiya haqqında məlumatlar vermişlər.

Sasanilər imperiyasının və Qafqaz Albaniyasının süqutundan sonra tarixi Azərbaycan əraziləri Ərəb xilafətinin hakimiyyəti altında olmuşdur. Xilafətin parçalanması nəticəsində bu ərazidə yaradılan müxtəlif dövlətlər, sonralar Şimali Azərbaycan ərazisindəki xanlıqlar öz müstəqilliyinin müdafiəsində diplomatik imkanlardan geniş istifadə etmişlər.

Azərbaycan diplomatiyasının tarixi də onun dövlətçilik tarixinin tərkib hissəsidir. Qədim zamanlardan müasir dövrə qədər Azərbaycanın keçdiyi tarixi yola nəzər salmaqla, diplomatiya tariximizin keçdiyi yolu da canlandırmaq mümkündür.

Tarixin bütün dövrlərində diplomatları böyük ehtiyatla təyin edirdilər. Bir qayda olaraq, diplomat öz borcunu sədaqətlə yerinə yetirən, namuslu, bacarıqlı, yaxşı yaddaşa, gözəl nitqə malik, təmkinli, savadlı adamlardan ibarət olurdu. Səlcuq sultanlarından Alparslan və Məlikşahın vəziri olmuş, görkəmli dövlət xadimi və diplomat olan Nizamülmülk XI əsrdə "Siyasətnamə" adlı əsərində yazmışdır: “Elçiliyə o adam yarayır ki, ... hafizəli, uzaqgörən olsun və hər bir elmdən xəbəri olsun, dilli-dilavər olsun, artıq söz söyləməsin, çox səfər etmiş, qəddqamətli, yaraşıqlı olsun, alim və qoca olsa, daha yaxşı olar...Elçi şərafətli, əsl nəcəbli olsa, daha yaxşıdır, çünki belə adamın hörməti də çox olar”.

Azərbaycan tarixi üçün diplomatiyada fəallıq həmişə səciyyəvi olmuşdur. Bu fəallıq özünü Ağqoyunlu (Ağhunlu) və Səfəvilər dövlətində daha aydın büruzə vermişdir. Oğuz türklərinin Ağhunlu dövləti Azərbaycanın xarici siyasət ənənələrinin inkişafı tarixində müstəsna yer tutmaqdadır. Uzun Həsən kimi tanınan Həsən xan Bayandurun (1453-1478) hakimiyyətdə olduğu illərdə Azərbaycan təkcə Şərq dövlətləri ilə deyil, bir sıra Avropa ölkələri – Venesiya, Neapol, Roma papalığı, Polşa, Almaniya, İngiltərə, Avstriya, Macarıstan, Burqundiya hersoqluğu, Moskva knyazlığı, Trabzon, Kipr və s. kiçik və böyük dövlətlərlə diplomatik əlaqələr qurmuşdur. Xarici ölkələrdə Ağhunlu xanədanının 30-dan çox elçiliyi yaradılmış, Həsən xanın sarayında isə əcnəbi diplomatik nümayəndələr fəaliyyət göstərmişlər. Xüsusilə qeyd etmək istərdik ki, Şərq dünyasının ilk diplomat qadını da azərbaycanlı Sara xatun - Uzun Həsənin anası olmuşdur. O, xarici dövlətlərlə aparılan danışıqlarda siyasi məharətini və müdrikliyini dəfələrlə nümayiş etdirmişdir. Ağhunlu dövlətinin idarə olunmasında fəal iştirak edən Sara xatun xarici ölkələrin ayrı-ayrı dövlət xadimləri, o cümlədən Teymurilərin hökmdarı Əbu Səid, Osmanlı sultanı II Mehmet kimi dövlət başçıları ilə diplomatik danışıqlar aparmış, Ağhunlu dövlətinin maraqlarını uğurla müdafiə etmişdir (“SOME CONSIDERATIONS ON THE POLITICAL ACTIVITIES OF SARA HATUN, THE FIRST DIPLOMAT IN TURKISH-ISLAMIC HISTORY”. V Shemshek. The Journal of Social Science. Year:4, Volume:4, Number:7 / 2020).

Ağhunluların xarici siyasət ənənələrini davam etdirən Səfəvilərin hakimiyyəti dövründə (1501-1736) də Azərbaycan Qara dəniz və Aralıq dənizi hövzəsi ölkələrindən başlamış uzaq İngiltərə və Skandinaviyaya qədər bir çox Avropa dövlətləri ilə diplomatik əlaqələr saxlayır, Şərqlə Qərb arasında əlaqələrin qurulmasında mühüm rol oynamaqda davam edirdi. Məhz Şah İsmayıl Xətai (1487-1524) ilə Qərb arasında yaranmış sıx siyasi təmaslar sayəsində Avropadan Təbrizə ticarət missiyaları gəlməyə və burada daimi nümayəndəliklər açılmağa başlamışdı. O, diplomatik yolla zəmanəsinin digər qüdrətli siyasi mərkəzi - Hindistandakı Böyük Moğollar imperiyası ilə də kifayət qədər möhkəm dostluq əlaqələri yaratmışdı. I Şah İsmayılın fəal xarici siyasəti, onun Qərbi Avropa dövlətləri, o cümlədən Papalıq və Venesiya ilə diplomatik əlaqələri Azərbaycanın xarici siyasətinin mühüm tərkib hissəsidir. Uzun Həsənin qız nəvəsi olan Şah İsmayılın milli dövlətçilik tarixində misilsiz xidmətlərindən biri də Azərbaycan türkcəsini dövlət idarəçiliyinə və diplomatik münasibətlərə gətirməsidir. Belə ki, Səfəvilər sülaləsinin hakimiyyətdə olduğu dövrlərdə bu dil rəsmi dövlət dili statusunu qoruyub saxlayaraq həm də diplomatiya dili olmuşdur (T.H. Nəcəfli “Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti”, Ə. Quliyev “Səfəvilər Venesiya və Avropa mənbələrində”).

Azərbaycanın və Yaxın Şərqin siyasi tarixində silinməz iz buraxmış, Qərb tarixçilərinin "Şərqin Napoleonu" adlandırdıqları Nadir şah Əfşar (1688–1747) mövcud mürəkkəb siyasi vəziyyətə baxmayaraq, milli vəhdətə nail olmağı bacarmış, döyüş meydanında və diplomatiya sahəsində atdığı qətiyyətli addımlar hesabına doğma xalqını parçalanmadan, əsarət və təhdidlərdən xilas etməyə müvəffəq olmuşdur. Məhz Nadir şahın hakimiyyəti dövründə Osmanlı dövləti ilə hər iki ölkənin paytaxtında daimi diplomatik nümayəndəliyin təsis edilməsinə razılıq əldə edilmişdi. Diplomatların vəzifəsi yaranacaq bütün mümkün mübahisələri yerindəcə həll etməkdən ibarət idi. Rusiya ilə razılaşmada isə tərəflər yerlərdə ticarət nümayəndəliklərinin açılması, bu şəxslərə diplomatik rütbələrin verilməsi, onların toxunulmazlığının təmin edilməsi məsələlərində ortaq rəyə gəlmişdilər.







Составлено 9 июля 1919 г.

Təəssüflər olsun ki, XVIII əsrin ortalarında Nadir şahın ölümündən sonra 5.5 milyon kvadrat kilometr əraziyə malik olan Əfşar dövləti 20-yə yaxın xanlığa parçalandı. Azərbaycan torpaqlarının bütövlüyü pozulsa da, dövlətçilik ənənələri ayrı-ayrı xanlıqlar timsalında Rusiya çarizminin işğalına qədər davam etməkdə idi. Xanlıqların heç biri öz xarici siyasətində tam müstəqil və qətiyyətli addım atmağa qadir deyildi. Hər bir xanlıq ayrı-ayrılıqda özünə Osmanlı dövlətinin, yaxud Rusiyanın nümunəsində himayədar axtarır, müstəqilliyini qorumaq üçün xarici siyasətini həmin dövrün böyük dövlətlərinin maraqlarına uyğunlaşdırmağa çalışırdı. Müəyyən məqamlarda Şəki xanının, Quba hakiminin, Ağa Məhəmməd şah Qacarın, Abbas Mirzə Qacarın Azərbaycan xanlıqlarını birləşdirmək cəhdləri özünü göstərsə də, onların cəhdləri bir səmərə verməmişdi. Rusiya çar hökuməti Azərbaycanın xanlıqlara parçalanmasından istifadə edərək, bu prosesdə həm güc amilindən, həm də müqavilələr bağlanmasından istifadə edirdi. Nəticə etibarı ilə, Rusiya ilə Qacarlar dövləti arasında Gülüstan və Türkmənçay müqavilələrinin imzalanması ilə Azərbaycan xanlıqlarının süqutu başa çatdırıldı. Azərbaycanın tarixi ərazilərinin Rusiya imperiyası tərəfindən işğalı və parçalanması, ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi regionun etnik mənzərəsinin süni şəkildə dəyişdirilməsi ilə nəticələndi.

Rusiyada monarxiyanın devrilməsindən sonra 1918-ci il mayın 28-də Azərbaycanın Xalq Cümhuriyyəti elan edildi. Cəmi 23 ay fəaliyyət göstərmiş cümhuriyyətin İstiqlal bəyannaməsində elan olunduğu kimi, hökumətin xarici siyasət strategiyasının əsasını onun “beynəlxalq birliyin bütün üzvləri, xüsusən həmsərhəd xalqlar və dövlətlərlə dostluq əlaqələrinin qurulması” prinsipi təşkil edirdi.

Arxivlərdən Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyinə aid tapılmış ilk rəsmi sənəd 1919-cu il 9 iyul tarixli Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin Katibliyinə dair Müvəqqəti Təlimat (Временный наказ Канцелярии Министерства Иностранных Дел) olduğundan məhz bu tarix diplomatiya gününün əsasını təşkil edir. Bu Təlimata görə, Nazirliyin Dəftərxanasına onun direktoru rəhbərlik edir, direktorun müavininə isə bütün cari qeyri-diplomatik xarakterli yazışmalar həvalə olunur. Dəftərxananın nəzdində "draqoman" (əmrlərin hazırlanması və rəsmiləşdirilməsi), xüsusi tapşırıqlar üzrə iki məmur var idi. Nazirliyin Dəftərxanası üç bölmədən ibarət idi: diplomatik, ümumi işlər və təsərrüfat. Diplomatik bölmə nazirin göstərişi üzrə notalar hazırlamaq, cümhuriyyət hökumətinin tanınması, diplomatik nümayəndələrin, konsulların, agentliklərin qarşılıqlı tanınması, həmçinin məxfi yazışma və şifrələnmə də daxil olmaqla, diplomatik yazışmalarla məşğul idi. Ümumi bölməyə müxtəlif yazışmaların aparılması, arayışların, şəhadətnamələrin və imzaların təsdiqi, şəxsi heyətin uçotunun aparılması, müxtəlif qanun layihələrinin hazırlanması həvalə olunur. Nazirliyin istər ölkə daxilindəki, istər ölkə xaricindəki əmlakına sərəncam vermək, nazirliyin xərclər smetasını hazırlamaq, mühasibat işlərini aparmaq məsuliyyəti Təsərrüfat bölməsinin üzərinə düşürdü. Nazirliyin arxivinə Zaqafqaziyaya, əsasən də Azərbaycana aid bütün aktları və sənədləri toplayıb sistemə salmaq həvalə olunmuşdu.

Cümhuriyyətin qurucuları Azərbaycanın xarici siyasət tarixinin şərəfli səhifələrini yazdılar. Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən Xarici İşlər Nazirliyini təsis etmiş, müxtəlif vaxtlarda Məmmədhəsən Hacınski, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Məmmədyusif Cəfərov bu quruma başçılıq etmişdilər. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Xarici İşlər Nazirliyi sistemində 239 nəfər çalışmışdır (M. Qasımlı. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyinin bağlanması və yeni xarici siyasət xətti (1920-1922-ci illər). Həmin dövrdə Xarici İşlər Nazirliyinin ən vacib vəzifəsi Azərbaycanın dövlət müstəqilliyinin Avropada tanınması və qonşu dövlətlərlə münasibətlərin tənzimlənməsi idi. Azərbaycan diplomatları Paris sülh konfransında iştirak etməklə olduqca əhəmiyyətli uğura imza atmışlar, 1920-ci il yanvarın 11-də Versal Ali Şurasında Azərbaycan Xalq Cümhuriyyəti müstəqil dövlət kimi tanınmışdır.

1920-ci ilin aprel böhranı ərəfəsində Azərbaycan Respublikasının beynəlxalq aləmdən təcrid edilməsi artıq aradan qaldırılmış və onun diplomatik cəhətdən geniş tanınması dövrü başlanmışdı. Azərbaycan Respublikası Gürcüstanla (səlahiyyətli nümayəndə F.Vəkilov), Ermənistanla (səlahiyyətli nümayəndə Ə.Haqverdiyev), İranla (diplomatik nümayəndə A.Ziyadxanov), Türkiyə ilə (səlahiyyətli nümayəndə Y.V.Çəmənzəminli) rəsmi diplomatik əlaqələr saxlayırdı. Azərbaycanın Batum konsulluğuna M.Əfəndiyev, Türküstandakı siyasi nümayəndəliyinə A.Sadıqov başçılıq edirdi.

Öz növbəsində, Azərbaycanda da artıq bir çox xarici dövlətlərin diplomatik missiyaları fəaliyyət göstərirdi. İngiltərə (vitse-konsul Gevelke), Belçika (konsul Ayvazov), Yunanıstan (konsul Kusis), Ermənistan (diplomatik nümayəndə Bekzadyan), Gürcüstan (diplomatik nümayəndə N.S.Alşibaya), Danimarka (konsul Biyerinq), İtaliya (konsul L.Qrikurov), Litva (konsul agenti V.İ.Miskeviç), İran (baş konsul Səəd-ül-Vəzir), Polşa (konsul agenti S.Rılskiy), ABŞ (vitse-konsul Randalt), Ukrayna (vitse-konsul Qolovan), Finlandiya (konsul agenti Beqelius), Fransa (konsul agenti Yemelyanov), İsveçrə (konsul Klottyü), İsveç (konsul Van-der-Pluq) diplomatik nümayəndələri artıq tam səlahiyyətlə fəaliyyətə başlamış, Yaponiya hökuməti Azərbaycanla diplomatik münasibətlər yaratmağa hazır olduğunu bildirmiş, Vatikan isə Antuan Delabus başda olmaqla öz nümayəndələrini Bakıya göndərmişdi (“1920-ci il üçün Azərbaycan Respublikasının Ünvan - Təqvim” kitabı - “Адрес - Календарь Азербайджанской Республики” на 1920-й год).

1920-ci ilin aprelində Sovet Rusiyasının hərbi təcavüzü nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin süquta uğradılması və onun yerində Azərbaycan SSR-in yaradılması milli diplomatiya tarixində Azərbaycan xalqının tarixi ərazilərin itirildiyi dövr kimi qiymətləndirilir. Sovet Rusiyasının işğalından sonra, 1923-cü ildə Türkiyə və İran istisna olmaqla, Azərbaycanda fəaliyyət göstərən bütün diplomatik nümayəndəliklər ləğv edildi. Bu proses Azərbaycanın müstəqil xarici siyasətinin tamamilə pozulmasına gətirib çıxardı.

Sovet hakimiyyətinin birinci iki ilində respublika hökumətinin tərkibində Xarici İşlər Komissarlığı fəaliyyət göstərmişdir. 1921-ci ilin oktyabrında Azərbaycan SSR-in Türkiyədə səfirliyi, bir qədər sonra isə Qarsda konsulluğu fəaliyyətə başlamışdır. Səfir İbrahim Əbilov Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlərin daha da genişləndirilməsində mühüm xidmətlər göstərmişdir. Lakin Azərbaycan Xarici İşlər Komissarlığının fəaliyyəti getdikcə məhdudlaşdırılmış, bir sıra məqamlarda formal xarakter daşımış, onun fəaliyyəti tədricən Moskvanın tam nəzarətinə keçmişdi.

1939-cu ildə II Dünya müharibəsinin başlanması Azərbaycan amilini yenidən beynəlxalq müzakirələrin obyektinə çevirdi. Yalnız müharibənin sonlarına yaxın Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığı bərpa edildi. 1946-cı ildən Xalq Xarici İşlər Komissarlığı Xarici İşlər Nazirliyinə çevrildi. Amma, XİN yenə də səlahiyyətsiz bir rəsmi qurum olaraq qalırdı. Sovet dövründə Azərbaycan mərkəzi hakimiyyət vasitəsi ilə ölkənin beynəlxalq əlaqələrində bu və ya digər dərəcədə iştirak edirdi.

1969-cu ildə ulu öndər Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə gələndə Azərbaycanın ölkədən kənarda tanınmaması, elm, təhsil və mədəniyyət sahəsindəki nəzərəçarpacaq gerilik, iqtisadiyyatda sistemli irəliləyişin olmaması, milli-mənəvi böhran həddi, xarici ölkələrdəki həmvətənlərimizlə əlaqələrin yoxluğu, dirçəlməkdə olan əsassız erməni iddiaları, müxtəlif sahələr üzrə milli kadrların olmaması və sair məsələlər Azərbaycanda real mənzərə idi.

Məsələlərin həllinə məhz kompleks yanaşmaqla Heydər Əliyev böyük uğurlar qazana bilmişdir. Gələcək nəsillər üçün son dərəcə əhəmiyyətli sərvət olan idarəçilik diplomatiyasının ənənəsi də elə Heydər Əliyevin müəyyən etdiyi taktika sayəsində formalaşmışdır. O, Azərbaycanın beynəlxalq aləmdə tanıdılmasının yollarından biri kimi mərkəzi və xarici ölkələrin mətbuat orqanlarında respublika haqqında məqalələrin çap etdirilməsinə nail olmuşdur. Heydər Əliyevin səyləri nəticəsində sovet dövründə Azərbaycanda diplomat kadrların potensialının formalaşması, milli kadr və mütəxəssislərin hazırlanması və müxtəlif sahələrdə irəliləməsi sistemli şəkildə həyata keçirilmişdir. O, azərbaycanlı gənclərin ölkənin qabaqcıl ali məktəblərində təhsil alması üçün şərait yaratmışdır. 1975-ci ildə respublikada Xarici İşlər Nazirliyinin tərkibi 75 faiz yeniləşdirildi. Bir nəfər azərbaycanlı diplomat xaricdəki SSRİ səfirliyinə işləməyə göndərildi. Artıq bu zaman 8 nəfər azərbaycanlı Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda təhsil alırdı. Həmin ildə respublika Xarici İşlər Nazirliyinin 2 nəfər əməkdaşı diplomatik, 4 nəfər isə ixtisasartırma kurslarına göndərildi, XİN-də əlavə 2 diplomat ştatı artırıldı. Bütövlükdə isə, 70-ci illərdə SSRİ XİN sistemində 40-a yaxın azərbaycanlı diplomat çalışırdı (M. Qasımlı. Heydər Əliyev - istiqlala gedən yol (1969-1987-ci illər).

Ötən əsrin 70-80-ci illərində Azərbaycanın beynəlxalq əlaqələri əvvəlki illərə nisbətən genişləndi. 1978-1979-cu illər İran inqilabı və 1979-cu ildə SSRİ-nin Əfqanıstana müdaxiləsindən sonra Azərbaycan sovet dövlətinin Şərq siyasətində yenidən mühüm rol oynamağa başladı. Respublikanın paytaxtı bir çox beynəlxalq toplantıların keçirildiyi məkana çevrildi. Azərbaycan 70-ci illərdə müsəlman Şərqinə təsir edən respublika oldu. Həmin illərdə Azərbaycanın beynəlxalq iqtisadi, mədəni, elmi-texniki və b. əlaqələrinin coğrafiyası daha da genişlənmişdi.

1991-ci ildə Azərbaycan yenidən müstəqilliyini elan etdikdən sonra onun beynəlxalq təşkilatlar və dünya dövlətləri tərəfindən tanınması prosesi başlandı. Azərbaycan Respublikası tezliklə İslam Əməkdaşlıq Təşkilatına, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına və BMT-yə üzv qəbul edildi. 1991-ci ilin sonu - 1992-ci ildə Azərbaycanın dünya dövlətləri tərəfindən ardıcıl şəkildə tanınması və diplomatik münasibətlərin yaradılması onun dünya birliyinə sistemli surətdə inteqrasiyasına geniş yol açdı.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı və Azərbaycan Respublikasının Prezidenti seçilməsi ölkəmizin beynəlxalq əlaqələrinin yaranmasında və dünya birliyinə inteqrasiyasında həlledici rol oynamışdır. Heydər Əliyev hesab edirdi ki, yalnız peşəkarlığı yüksək olan kadrlar sayəsində müstəqil dövlətimizin xarici siyasətinin səmərəli fəaliyyətini təmin etmək olar. 6 mart 1998-ci il tarixində Xarici İşlər Nazirliyinin kollektivi ilə görüşündə Heydər Əliyev qeyd etmişdir ki, “...Dövri-qədimdən bütün dövlətlərin tarixində diplomat peşəsi ən hörmətli, ən şərəfli peşədir. Keçmiş tarixə baxsaq, hansı ölkənin tarixini götürsək, diplomatik işlərə hər bir ölkədə ən yuxarı təbəqədən, ən hazırlıqlı, bilikli, savadlı, ən zəkalı adamları təyin edirdilər. Ümumiyyətlə,... "Diplomat" deyəndə adamın gözünün qabağına nə gəlir? Ən yüksək savadlı, ən yüksək mədəniyyətli, ən gözəl görünüşlü, yaxşı geyimli, yaxşı tərbiyəsi ilə, cəmiyyətdə özünü aparmağı ilə fərqlənən insanlar.”

Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu çoxvektorlu, müstəqil və milli maraqlara əsaslanan xarici siyasət kursunu sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarına adekvat olaraq çevik, innovativ və hücum taktikasına əsaslanmaqla bu gün Prezidenti İlham Əliyev davam etdirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 16 iyul 2020-ci il tarixində Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən qeyd etmişdir ki, “...bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, milli maraqlar tam təmin edilməlidir... Bizə elə diplomatik kadrlar lazımdır ki, peşəkar, milli ruhda, milli dəyərlərə bağlı olsunlar, ölkəmizi müdafiə edə bilsinlər”.

> *Xarici siyasətimiz Azərbaycan xalqının milli maraqlarını hər şeydən üstün tutur. Azərbaycan heç bir xarici qüvvənin diktəsi ilə oturub-durmur, müstəqil siyasət aparır və sürətlə inkişaf edir, eyni zamanda, sübut edir ki, bu gün müsəlman aləmində dinamik, müasir, öz milli-mənəvi dəyərlərinə sadiq, güclü bir dövlət vardır.*
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

Bu gün ölkə daxilində və xarici dövlətlərdə, beynəlxalq və regional təşkilatlarda Azərbaycanın xarici siyasət kursunu həyata keçirən 1000-ə yaxın peşəkar diplomat fəaliyyət göstərir. Çağdaş diplomatiyanın tələblərinə uyğun yeni kadrların formalaşmasında mühüm rol oynayan ADA Universiteti uğurla fəaliyyət göstərir.

Hazırda Azərbaycan Respublikasının 186 xarici ölkə ilə diplomatik əlaqələri qurulmuşdur. Azərbaycanın 60 ölkədə səfirliyi, 5 beynəlxalq təşkilat yanında daimi nümayəndəliyi, 9 şəhərdə baş konsulluğu, 8 təmsilçilik ofisi və 12 ölkədə fəxri konsulluğu fəaliyyət göstərir. Bütövlükdə, Azərbaycanın 27 beynəlxalq təşkilat yanında nümayəndəliyi mövcuddur. Eyni zamanda, Azərbaycanda 65 ölkənin səfirliyi və 3 ölkənin 4 baş konsulluğu, 11 ölkənin fəxri konsulluğu fəaliyyət göstərir. Azərbaycanda 23 beynəlxalq təşkilatın nümayəndəliyi vardır.

Müstəqil Azərbaycanla xarici dövlətlər arasında ilk diplomatik əlaqələr qurulmasından 30 il keçir. Bu gün Azərbaycan dünya dövlətləri cərgəsində etibarlı tərəfdaş kimi öz layiqli yerini tutur. Əlverişli geosiyasi və coğrafi mövqeyi, eyni zamanda dövlət başçısı tərəfindən yürüdülən milli maraqlara söykənən xarici siyasət Azərbaycanın regional və qlobal proseslərdə güc mərkəzi kimi rol oynamasına imkan yaradır. Azərbaycanın adı bu gün dünyanın ən rəqabət qabiliyyətli ölkələri sırasında çəkilir və Azərbaycanın öz tərəfdaşları ilə həyata keçirdiyi nəhəng layihələr Avrasiyanın enerji və nəqliyyat xəritəsini zənginləşdirmişdir.

Böyük İpək Yolu üzərində yerləşən Azərbaycan Respublikası bu gün Şərqlə Qərb, Şimalla Cənub, Avropa ilə Asiya, İslam aləmi ilə Xristian aləmi arasında siyasi, iqtisadi, mədəni, nəqliyyat və digər sahələrdə beynəlxalq əhəmiyyətli körpüdür. Bu körpüyə beynəlxalq birliyin ehtiyacı var. Eyni zamanda, Azərbaycan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, Azəri-Çıraq-Günəşli, TANAP, TAP kimi beynəlxalq layihələrin təşəbbüskarı və mühüm iştirakçısıdır. Bu gün Azərbaycan mədəniyyətlərarası dialoq, tolerantlıq, multikulturalizm ünvanıdır, öz multikultural və tolerant cəmiyyəti ilə dünya miqyasında nümunəvi bir ölkədir.

Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyevin apardığı uğurlu xarici siyasət nəticəsində, 44 günlük Vətən müharibəsi zamanı onun rəhbərliyi ilə Azərbaycanın diplomatiya və informasiya cəbhələrində qətiyyətli mübarizəsi, şanlı ordumuzun qəhrəmanlığı və xalqımızın ordu və dövlətlə birliyi sayəsində torpaqlarımız işğaldan azad edildi, ərazi bütövlüyümüz bərpa olundu. Bu müharibə 30 illik müasir müstəqillik dövrümüzün ən mühüm hadisəsi olmaqla yanaşı, onun yaratdığı reallıqlar ölkəmizin daha böyük uğurlarının başlanğıcıdır. Hazırda Azərbaycan Respublikası ərazi bütövlüyünü bərpa etmiş dövlət kimi, müstəqillik tarixinin ən böyük quruculuq dövrünü yaşayır. 30 il ərzində Azərbaycana dəstək verən dost ölkələr işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərində fəal iştirak edirlər. Bütün bunlar Azərbaycanın xarici siyasət sahəsində böyük nailiyyətlərin müəllifi olduğunu təsdiq edir.

Adını dünya diplomatiya və hərb tarixinə həkk etmiş Prezident İlham Əliyevin diplomatlar qarşısında qoyduğu yeni vəzifələr Azərbaycanı növbəti nailiyyətlərə istiqamətləndirir. Müstəqilliyimizin möhkəmləndirilməsi, dünya dövlətləri arasında Azərbaycanın ədalətli mövqeyinin təbliği və qorunması məhz diplomatların üzərinə düşən böyük və şərəfli vəzifədir. Əminik ki, tarixi minilliklərlə ölçülən dövlətçilik ənənələrinə malik Azərbaycan diplomatiyası bu vəzifələri şərəflə yerinə yetirəcəkdir.

***Bayram HƏSƏNOV,***
***Xarici İşlər Nazirliyinin Arxiv idarəsinin rəisi***